Azərbaycan Respublikasının
Səfirliyi

Embassy of the
Republic of Azerbaijan

No. ARDT/157/10 «29» oktyabr 2010

**Azərbaycan Respublikası Prezidenti
yanında Dövlət İdarəçilik
Akademiyasının birinci prorektoru
cənab Əlikram ABDULLAYEVƏ**

Hörmətli Əlikram müəllim,

Məlumunuz olduğu kimi, cari ilin 25 oktyabr tarixində Azərbaycan Respublikasının Diaspora ilə iş üzrə dövlət komitəsinin dəstəyi ilə Azərbaycan Respublikasının Rumıniyadakı səfirliyinin və Rumıniya-Azərbaycan Mədəniyyət və Gənclər Assosiasiyasının birgə təşkilatçılığı ilə Rumıniyanın Buxarest şəhərində Avropanın enerji təhlükəsizliyində Azərbaycanın rolu ilə bağlı beynəlxalq konfrans keçirilmişdir.

Konfransda Rumıniya Prezidentinin milli təhlükəsizlik məsələləri üzrə müşaviri, Rumıniya İqtisadiyyat, Ticarət və Biznes mühiti nazirliyinin dövlət katibi, Enerji təhlükəsizliyi məsələləri üzrə xüsusi tapşırıqlar üzrə Səfir, Rumıniyanın digər yüksək səviyyəli rəsmiləri, 32 ölkənin diplomatik nümayəndəliklərinin rəhbərləri və diplomatları, Qara Dəniz-Xəzər Dənizi əməkdaşlığı və tərəfdaşlığı üzrə beynəlxalq fondun rəhbərliyi, ARDNŞ-nin Rumıniyadakı nümayəndəliyinin direktor müavini, Münaqişələrin qarşısının alınması və erkən məlumatlandırma Mərkəzinin direktoru, "Nabukko Beynəlxalq Qaz Boru xətti Konsorsiumu"nun ictimai işlər departamentinin direktoru, Risk, təhlükəsizlik və kommunikasiyanın idarə olunması üzrə Avropa İnstitutunun İcraçı Direktoru iştirak və çıxış etmişlər.

Çıxışçılar Şimal-Cənub və Şərq-Qərb nəqliyyat və enerji dəhlizləri boyunca əsas ticarət marşrutlarının kəsişməsində yerləşən Azərbaycanın geostrateji mövqeyi, ölkənin enerji və infrastruktur şəbəkəsinə çevrilməsi, əsası Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyev tərəfindən qoyulmuş enerji siyasətinin, neft strategiyasının bu gün Azərbaycan Prezidenti İ.Əliyev tərəfindən uğurla davam etdirilməsi, Azərbaycanda son texnologiyaya əsaslanan müasir infrastrukturun yaradılması, Azərbaycanın təsdiq olunmuş və potensial enerji ehtiyatları barədə ətraflı məlumat verilmişdir. Şaxələndirilmiş neft və qaz marşrutları sayəsində Azərbaycanın enerji resurslarının Avropa bazarları ilə yanaşı, Türkiyə, Gürcüstan, Rusiya, İrana ixrac edildiyi, Bakı – Tbilisi - Ceyhan əsas neft ixrac kəməri və Bakı-Tbilisi-Ərzurum qaz ixrac kəməri,

NABUCCO, İTGİ, AGRİ layihələrinin əhəmiyyəti və onların gerçəkləşdirilməsində Azərbaycanın rolu ətrafında geniş fikir mübadiləsi aparılmışdır. Azərbaycanın müstəqil və cəsarətli enerji siyasəti bir sıra region ölkələrinə örnək göstərilmişdir. Azərbaycan dövlətinin enerji ehtiyatlarından heç vaxt siyasi vasitə kimi istifadə etməməsi vurğulanmışdır. Regionda mövcud olan münaqişələr, o cümlədən Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin mövcudluğunun Avropanın gələcək sabit enerji təchizatı və təhlükəsizliyi üçün real təhdid və təhlükə olması xüsusilə qeyd edilmişdir. Konfransda həmçinin Rumıniyada təmsil olunan enerji şirkətlərinin, qeyri-hökumət təşkilatları, müxtəlif elmi-təhlil və strateji araşdırma mərkəzlərinin, institutların nümayəndələri və kütləvi informasiya vasitələrinin təmsilçiləri iştirak etmişlər.

Həmin gün, həmçinin Rumıniya Prezidentinin Administrasiyasında Prezidentin milli təhlükəsizlik məsələləri üzrə müşaviri Yulian Fotanın Diaspora ilə iş üzrə dövlət komitəsinin IV Ərazi şöbəsinin müdiri S.Hümbətov, Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının geostrateji araşdırmalar mərkəzinin direktor müavini E.Nəsirov və mərkəzin tədqiqatçısı A.Əsgərzadə ilə görüşü keçirilmişdir. Görüşdə iki strateji tərəfdaş ölkə arasında müxtəlif sahələrdə əməkdaşlıq əlaqələrinin hazırkı inkişaf səviyyəsi və perspektivləri barədə ətraflı fikir mübadiləsi aparılmış, keçirilmiş beynəlxalq konfransın əhəmiyyəti qeyd olunmuşdur.

Konfransın "Avropa enerji təchizatının təmin olunmasında Azərbaycan etimadlı və strateji tərəfdaş kimi" panelində Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının geostrateji araşdırmalar mərkəzinin direktor müavini Elman Nəsirov və mərkəzin tədqiqatçısı Aygün Əsgərzadə "Avropanın enerji təhlükəsizliyində Azərbaycanın yeri və rolu" və "Azərbaycanın enerji siyasəti və Nabukko" mövzularında məzmunlu və dolğun çıxışlar edərək, ölkəmizin enerji siyasəti, regionun və Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında rolu barədə tutarlı faktlarla iştirakçılara ətraflı məlumat vermişlər. Hər iki çıxış konfrans iştirakçıları tərəfindən böyük maraqla qarşılanmışdır.

Konfransın hazırlanması, təşkil olunması və keçirilməsində, həmçinin tədbir çərçivəsində və keçirilən ikitərəfli görüşlərdə ölkəmizin dövlət və milli maraqlarına söykənən peşəkar və səriştəli fəaliyyətlərinə, təşkilatçılıqlarına, ölkəmizi və rəhbərlik etdiyiniz qurumu layiqincə təmsil etdiklərinə görə Elman Nəsirova və Aygün Əsgərzadəyə minnətdarlığımı bildirirəm.

Fürsətdən istifadə edərək, şəxsiyyətinizə dərin hörmət və ehtiramımı izhar edir, şərəfli fəaliyyətinizdə yeni müvəffəqiyyətlər arzulayıram.

Hörmətlə,

**Səfir** **Eldar HƏSƏNOV**